**"TƏSDİQ EDİRƏM"**

**Naxçıvan Dövlət Universitetinin rektoru:**

**E.S.İsayev**

**"30" noyabr 2023-cü il**

# Naxçıvan Dövlət Universitetində imtahanların keçirilməsi Qaydaları

## I Fəsil. Əsas müddəalar

### Maddə 1. Qaydaların vəzifəsi

Naxçıvan Dövlət Universitetində imtahanların keçirilməsi Qaydaları (bundan sonra-Qaydalar) Naxçıvan Dövlət Universitetində (bundan sonra-Universitet) imtahanlara hazırlıq və imtahanların keçirilməsi üçün vahid qaydaları və onların tətbiqini müəyyən edir.

### Maddə 2. Qaydaların predmeti

Qaydalar Universitetdə keçirilən imtahanlara hazırlıq mərhələsini, imtahan prosesi və apelyasiya qaydalarını, imtahanların keçirilməsinə məsul şəxslərin səlahiyyətlərini və vəzifələrini əhatə edir.

## II Fəsil. İmtahana hazırlıq mərhələsi

### Maddə 3. İmtahan materiallarının hazırlanması

3.1 Universitetdə imtahanlar bir qayda olaraq yazılı, test və şifahi formada keçirilir. Bəzi hallarda fənnin xüsusiyyətindən asılı olaraq açıq və qismən şifahi (bir hissəsi şifahi, bir hissəsi yazılı) imtahanlar keçirilə bilər.

3.2 Müəllim semestr boyu çoxvariantlı imtahan tapşırıqları hazırlayaraq müvafiq kafedraya təqdim edir. İmtahana ən azı bir həftə qalmış kafedra müdirləri bu materialları elektron variantda və çap variantında Monitorinq və qiymətləndirmə bölməsinə və ya fakültənin imtahan qərargahına təqdim edir. Şifahi imtahan tapşırıqları da əvvəlcədən çoxvariantlılıq təmin edilməklə hazırlanır. Fakültə dekanı imtahan tapşırıqları bazasının yaradılmasını təmin edir.

3.3 Yazılı imtahan suallarının əvvəlcədən sillabuslarda tələbələrə həm elektron, həm də yazılı şəkildə verilməsi həyata keçirilir.

**Maddə 4. Biliyin qiymətləndirilməsi prosesi, qiymətləndirmə komponentləri və yekun qiymət**

4.1 Tələbələrin bilik səviyyəsi 100 ballıq qiymətləndirmə sistemində, müxtəlif komponentlər də nəzərə alınmaqla, imtahan yolu ilə müəyyən edilir. Qiymətləndirmənin nəticələrinin qeydiyyatı üçün Monitorinq və qiymətləndirmə bölməsi tərəfindən hər bir fənn üzrə qiymət cədvəli tərtib edilir.

4.2 İmtahandan sonra tələbələrin cavabları həmin gün Monitorinq və qiymətləndirmə bölməsində şifrlənir və yoxlanmaq üçün monitorinq qrupuna təqdim olunur.

4.3 Cavablar həmin gün, bəzi istisna hallarda növbəti gün ərzində yoxlanılıb qiymətləndirildikdən sonra yenidən Monitorinq və qiymətləndirmə bölməsinə verilir və şifrlər açılır. Monitorinq və qiymətləndirmə bölməsi qiymətləri fakültə tyutorlarına təhvil verilir. Fakültə tyutorları qiymətləri tələbə məlumat sisteminə daxil edir, hər bir fənn üzrə qiymət cədvəli çap edir və imzalayır. Bundan sonra qiymət cədvəlləri fənn müəllimi və dekan tərəfindən imzalanır və surəti Monitorinq və qiymətləndirmə bölməsində saxlanmaqla, dekanlığa təhvil verilir.

4.4 100 ballıq qiymətləndirmə sisteminin imtahana qədər olan fəaliyyətlə bağlı ayrı-ayrı komponentlərinin (esse-yazı işi, fəallıq, davamiyyət, layihə və s.) sillabusa uyğun olaraq tələbə məlumat sistemində bal bölgüsü aparılır. Ayrı-ayrı komponentlərin nəticələri final imtahanından əvvəl qiymət cədvəlində qeyd edilməlidir.

4.5 Qiymətləndirməyə daxil olan bütün komponentlər, o cümlədən fəallıq və davamiyyət ayrı-ayrılıqda qiymətləndirilməlidir. Davamiyyətin qiymətləndirilməsi yalnız müəllimin dərs jurnalındakı və ya elektron jurnaldakı qeydləri əsasında olmalıdır.

4.6 İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir.

4.6.1.Yazılı imtahan biletinə bir qayda olaraq fənni və proqramı əhatə edən 5 sual daxil edilir və bu növ imtahanın qiymət meyarları aşağıdakı kimidir:
-10 bal – tələbə keçirilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
-9 bal – tələbə keçirilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və məzmununu aça bilir;
-8 bal – tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
-7 bal – tələbə keçirilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
-6 bal – tələbənin cavabı əsasən düzgündür;
-5 bal – tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tama əhatə edə bilmir;
-4 bal – tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
-3 bal – tələbənin mövzudan xəbəri var, lakin fikirini əsaslandırmağı bacarmır;
-2 bal – tələbənin mövzudan xəbəri var;
-1 bal – tələbənin mövzudan qismən xəbəri var;
-0 bal – suala cavab yoxdur;
4.6.2.Test imtahanlarında isə proqramı əhatə edən, fənnin təlim nəticələrinə uyğun olaraq hazırlanmış 700-dən az olmayaraq test sualları tərtib olunur ki, bunlardan proqram-seçmə üsulu ilə 50 test sualı imtahanda tələbəyə təqdim olunur və hər bir sual 1 balla qiymətləndirilir (maksimum 50 bal).

4.6.3.Bəzi ixtisasların (qabiliyyət yönümlü və.s) xüsusiyyətindən asılı olaraq təşkil olunmuş digər növ imtahanlarda isə mövcud qaydalara uyğun şəkildə qiymətləndirilir.

4.7 Yekun qiymətləndirmə zamanı cari və aralıq balların cəmi **51**-dən az olmamalıdır (imtahan balı 17-dən az ola bilməz).

4.8 Ayrı-ayrı komponentlər də nəzərə alınmaqla, yekun qiymət fənnin qiymət cədvəlində qeyd edildikdən sonra nəticələr həmin gün elan edilir və Universitetin internet səhifəsində "e-cədvəl" bölümündəki imtahan nəticələri hissəsinə yüklənir. Tələbələr imtahan nəticələrini elektron şəkildə əldə edirlər.

4.9 Nəticələr elan edildikdən sonra tələbə məlumat sistemində hər hansı bir dəyişikliyin edilməsi qəti qadağandır.

**Maddə 5. İmtahan tapşırıqlarının hazırlanması**

5.1. Yazılı və şifahi imtahan tapşırıqları aşağıdakı qaydada hazırlanmalıdır:

5.1.1. İmtahan tapşırıqları kompüterdə yığılmalı, orfoqrafik cəhətdən səhvsiz olmalıdır. İmtahan tapşırıqları çoxaldılarkən hər bir nüsxənin səliqəli və oxunaqlı olması təmin edilməlidir;

5.1.2. İmtahan tapşırıqlarının hər bir variantında aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

5.1.2.1. fakültənin adı;

5.1.2.2. ixtisasın adı;

5.1.2.3. fənnin adı;

5.1.2.4. müəllimin adı;

5.1.2.5. semestr;

5.1.2.6. cari və ya aralıq imtahanın sözlə qeyd olunması;

5.1.2.7. imtahana ayrılan ümumi balın miqdarı;

5.1.2.8. imtahanın davametmə müddəti;

5.1.2.9. imtahanda əlavə materiallardan (kitab, lüğət, kalkulyator, cədvəllər, qrafiklər və s.) istifadə olunması (əgər nəzərdə tutulursa);

5.1.2.10. imtahan sualları.

5.1.3. Dekanlıq imtahanda hansı variantlardan istifadə olunmasını müəyyənləşdirir və qrupdakı tələbələrin sayına uyğun olaraq imtahan tapşırıqlarının çap olunmasını təşkil edir. Hər bir imtahan tapşırığı kafedra müdirinin imzası ilə təsdiq olunmalıdır.

5.2. Test üsulu ilə aparılan imtahan tapşırıqları aşağıdakı qaydada hazırlanmalıdır:

5.2.1. test üsulu ilə aparılan imtahanlarda da tapşırıqlar bütöv fənni əhatə etməli, tələbənin nailiyyətlərinin şəffaf və obyektiv qiymətləndirilməsinə xidmət etməlidir;

5.2.2. test tapşırıqlarının məxfiliyi qorunmalıdır;

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ * NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ *

5.2.3. test tapşırıqlarını tərtibi zamanı aşağıdakı müəyyən qaydalara əməl etmək lazımdır:

5.2.3.1. test tapşırıqları mövcud tədris proqramı əsasında tərtib edilməlidir;

5.2.3.2. sualın hazırlanmasına düzgün cavabdan başlamaq lazımdır, belə olduqda tez-tez rastlaşılan problemlərlə qarşılaşma ehtimalı minimuma enir;

5.2.3.3. testi tərtib edərkən sualı və cavab variantlarını təkrar-təkrar analiz etmək tövsiyə olunur;

5.2.3.4. testin sualı fənnin standart tələblərinə cavab verməli, müəyyən bir bitkin fikri ifadə etməlidir;

5.2.3.5. test tapşırıqlarının şərti dolaşdırıcı olmamalı, onlar tələbələrin biliyinin qiymətləndirilməsinə xidmət etməlidir;

5.2.3.6. test tapşırıqlarına diskussiya doğuran, eləcə də çox vaxt aparacaq hesablamalar tələb edən sual və cavabları daxil etmək məqsədəuyğun deyil;

5.2.3.7. test tapşırıqları tapmaca xarakterli olmamalıdır, tapşırığın şərti kimi "neçə", "nə qədər" və s. kimi yaddaş tələb edən cavab variantları daxil etmək məqsədəuyğun deyil. Belə hallar tələbənin bilik və vərdişlərini deyil, onların yaddaşı, yaxud digər fərdi xüsusiyyətlərini qiymətləndirməyə xidmət edir;

5.2.3.8. uzun sual və qısa cavab variantlarına üstünlük vermək məqsədəuyğundur. Əks halda cavabların oxunmasına daha çox vaxt sərf edilir;

5.2.3.9. testin şərti sual formasında deyil, mümkün qədər təsdiq formasında, qısa, aydın, birmənalı, təkrarsız olmalı, anlaşılmayan sözlərdən və ifadələrdən istifadə edilməməlidir. Test tapşırıqlarının şərtində "böyük", "kiçik", "az", "çox", "bəzən", "tez-tez", "həmişə", "heç vaxt" kimi ifadələrdən mümkün qədər az istifadə edilməlidir. Onlar bir tərəfdən qeyri-müəyyənlik yaradaraq subyektiv qəbul edilə bilər, bu isə səhv cavablandırmaya səbəb olur, digər tərəfdən isə cavabların birmənalı olması şərtini poza bilər;

5.2.3.10. bütün cavab variantları testin əsas hissəsi ilə qrammatik olaraq uzlaşmalı, bəzi hallarda testin əsas hissəsi cavablarla sanki bir cümlə təşkil etməlidir. Bütün hallarda qısa, sadə cümlələrdən istifadə etmək məqsədəuyğundur;

5.2.3.11. test tapşırıqlarının cavablarından ancaq biri doğru olmalı, düzgün və düzgün olmayan cavablar (distraktorlar) öz quruluşuna, sözlərin sayına görə təqribən eyni olmalıdır. Distraktorlar mətiqi cəhətdən əsaslandırılmalı və doğru cavaba yaxın olmalıdır, düzgünəbənzər distraktorlardan istifadə etmək məqsədəuyğundur;

5.2.3.12. cavab variantları biri birinə çox oxşadıqca düzgün cavabı tapmaq bir o qədər çətinləşir və tələbənin dərk etmək qabiliyyətini müəyyənləşdirmək asanlaşır;

5.2.3.13. cavab variantları arasında dəqiq fərqlərin olmasına diqqət yetirmək lazımdır, belə olmadıqda müxtəlif düzgün cavab variantları mövcud ola bilər;

5.2.3.14. eyni bir testdə cavab variantlarını təkrar etmək olmaz;

5.2.3.15. "göstərilənlərdən hər biri", yaxud "göstərilənlərdən heç biri" kimi cavab variantlarından düzgün istifadə edilməlidir. Məsələn, düzgün cavab variantı "göstərilənlərdən

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

hər biri" olduqda imtahan verən istənilən variantı seçsə belə test tapşırığına düzgün cavab vermiş olur, yəni testin birmənalı olması prinsipi pozulmuşdur. Ona görə də "göstərilənlərdən hər biri" ifadəsinin düzgün cavab variantı olması yolverilməzdir;

5.2.3.16. test tapşırıqları formula, şəkil və qrafiklərdən ifadə etməklə də tərtib oluna bilər.

5.2.4. Test tapşırıqlarının ekspertizası onların tərtibi prosesində mütləq şərtlərdəndir. Testlər tərtib edildikdən sonra onların obyektivliyini və düzgünlüyünü yoxlamaq lazımdır.

5.2.5. Test üsulu ilə aparılan imtahan tapşırıqlarının təqdim olunma prosesi çoxseçimli test tapşırıqlarından istifadə etməklə imtahanların texniki qurğu ilə (xüsusi proqram təminatına malik kompyuterlərlə) aparılması və nəticələrin avtomatik qiymətləndirilməsi həyata keçirilir. Bu məqsədlə Universitetdə "Elektron jurnal" və "Elektron imtahan proqramı" fəaliyyət göstərir.

5.2.6. Hazırlanmış test tapşırıqları müvafiq qaydada ekspertizadan keçdikdən sonra Monitorinq və qiymətləndirmə bölməsinə təqdim edilir. sonra Monitorinq və qiymətləndirmə bölməsinə təqdim etmək üçün testlər aşağıdakı texniki tələblərə müvafiq olmalıdır:

5.2.6.1. fənnin mövcud tədris proqramı bölmələrə ayrılır və bu bölmələr ardıcıl nömrələnir. Test tapşırıqları hər bir bölmə daxilində ayrıca nömrələnir və bir-birindən çətinliyinə görə fərqlənən 3 səviyyə üzrə - asan, orta və çətin səviyyələrdə tərtıb edilir. Test tapşırıqlarının ümumi sayının təqribən 35%-nin sadə, 35%-nin orta və 30%-nin çətin olması məqsədəuyğundur.

5.2.6.2. test tapşırıqları Monitorinq və qiymətləndirmə bölməsinə elektron variantında təqdim edilir.

5.2.6.3. hər bir test tapşırığına 5 hazır cavab variantı əlavə edilir. Cavab variantları A), B), C), D) və E) bəndləri ilə göstərilir. Cavab variantlarını yazarkən Siyahı (Spisok, Numbering) rejimindən istifadə edilməməlidir.

5.2.6.4. test tapşırıqları excell failində hazırlanmalıdır.

5.2.6.5. düsturlar və formulalar mümkün qədər "Word riyazi formula", şəkillər isə "Word şəkil" rejimində göstərilməlidir.

5.2.6.6. Monitorinq və qiymətləndirmə bölməsinə təqdim edilimiş test tapşırıqları imtahan proqramına daxil edilməklə xüsusi işləmələrdən keçirilir, təkrar suallar aradan qaldırılır və fənn daxilində hər bir bölmənin təmsil olunması şərtilə imtahan testləri formalaşdırılır.

5.2.6.7. test üsulu ilə imtahanlardan əvvəl qiymətləndirmə üçün müəyyən edilmiş standart (düzgün cavabın neçə balla qiymətləndirilməsi, eləcə də səhv cavabların imtahan nəticələrinə necə təsir etməsi) tələbələrə bildirilir.

5.3. İstər yazılı, istər şifahi, istərsə də ki, test tapşırıqlarının düzgün tərtib olunmasına müəllim və kafedra müdiri məsuliyyət daşıyır.

**Maddə 6. Fənnin tədris edildiyi dil və imtahan**

İmtahan fənnin tədris edildiyi dildə aparılır (xüsusi hallarda əsaslandırılmış istisnalar ola bilər).

**Maddə 7. Qeydiyyat və imtahan**

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

Tələbə qeydiyyatdan keçmədiyi fəndən imtahan verə bilməz.

**Maddə 8. Təhsil haqqı və imtahan**

Təhsil haqqını, götürdüyü kreditlərin sayına uyğun olaraq, tam ödəməyən tələbə imtahanlara buraxılmır.

**Maddə 9. Davamiyyət və imtahan**

Hər hansı bir fəndən üzürsüz olaraq 25% və ondan çox dərs buraxan tələbə imtahana buraxılmır və həmin fənni, yenidən təhsil haqqı ödəməklə, təkrar oxumalıdır.

**Maddə 10. İmtahanda iştirak**

Tələbələr imtahan cədvəlinə uyğun olaraq imtahanda iştirak etməlidirlər. Tələbə imtahanda iştirak etməmişdirsə, imtahan qeydiyyat vərəqəsində «gəlmədi» yazılır. Tələbə imtahana buraxılmadığı halda imtahan qeydiyyat vərəqəsində «buraxılmır» yazılır.

**Maddə 11. İmtahan cədvəllərinin dərc olunması**

Fakültə dekanları tərəfindən tərtib edilmiş və tədris işləri üzrə prorektor tərəfindən təsdiq olunmuş imtahan cədvəlləri hər sessiyada imtahanlara bir ay qalmış fakültənin elanlar lövhəsində asılmalı, Universitetin E-cədvəl mobil tətbiqinə qoyulmalıdır.

**Maddə 12. İmtahan tapşırıqlarının yazılması və yoxlanılması**

12.1 Tələbələr imtahan tapşırıqlarının cavablarını göy rəngli diyircəkli qələmlə yazmalı, müəllimlər isə imtahan işlərini qırmızı rəngli qələmlə yoxlamalıdırlar. Karandaşdan istifadə etmək qəti qadağandır.

12.2 Çoxseçimli imtahan suallarında ancaq bir düzəlişə icazə verilir. Bu düzəliş nəzarətçi tərəfindən təsdiq edilməlidir.

**Maddə 13. İmtahanın davametmə müddəti**

İmtahanın davametmə müddəti, bir qayda olaraq, 2 saatdır. Ayrı-ayrı hallarda fənnin xüsusiyyətindən asılı olaraq, müəllimin təklifi ilə bu müddət artırıla bilər və bu barədə məlumat imtahan tapşırıqlarında öz əksini tapmalıdır.

**Maddə 14. İmtahan nəticələrinin toxunulmazlığı və aliliyi**

İmtahanın nəticələrini istənilən şəkildə təhrif edən hər bir şəxs qanunauyğun şəkildə cəzalandırılır.

## III Fəsil. İmtahan prosesi

**Maddə 15. Ümumi tələblər**

15.1 İmtahan tələbənin fənn üzrə bilik və bacarıqlarını yoxlamaq məqsədilə keçirilir. Məqsədə uyğun olaraq, imtahan zamanı tələbə heç bir kənar köməkdən istifadə etməməlidir.

15.2 Hər bir tələbə imtahan qaydalarına dəqiq riayət edilməsinin vacibliyini dərk etməli, qadağan olunmuş hərəkətlər etməməli və ya buna cəhd göstərməməlidir.

15.3 Tələbə imtahan qaydalarını əvvəlcədən bilməlidir. Qaydaların bilinməməsi tələbəni qaydaların pozulmasından irəli gələn cəzalardan azad etmir.

15.4 Bütün tələbələr qaydalarla əvvəlcədən tanış olmalı və buna dair sənədi təsdiqləməlidir. Qaydalarla tanış olduğuna dair sənədi təsdiqləməyən tələbə imtahana buraxılmır.

**Maddə 16. İmtahanın tarixi, saatı və yeri**

16.1 İmtahan günləri və saatları qeyd olunmuş cədvəl fakültənin elanlar lövhəsində asılır və eyni zamanda Universitetin E-cədvəl mobil tətbiqinə yerləşdirilir. Tələbə imtahan vaxtını əvvəlcədən öyrənməlidir.

16.2 İmtahan cədvəli ancaq tədris işləri üzrə prorektorun razılığı ilə dekan tərəfindən dəyişdirilə bilər. Bununla bağlı Monitorinq və qiymətləndirmə bölməsinə məlumat verilməlidir. Nəzarətçilər imtahan vaxtının dəyişdirilməsinə dair tələbələrin sorğularını həll etmirlər.

16.3 Bir qayda olaraq, tələbənin imtahan cədvəlində bir gündə ancaq bir fəndən imtahan verilməsi nəzərdə tutulur. Tədrisqrafikinə uyğun hərəkət edən tələbələr üçün imtahan arasında ən azı 2 gün fasilə olmalıdır. İstisna hallarda tədris qrafikindən geri qalan tələbələr 2 gün ardıcılıqla hər gün 1 fəndən imtahan verə bilər.

16.4 İmtahanın keçirilməsi qeyri-mümkün olduqda dekanlıq imtahan cədvəlini dəyişdirə bilər. Bu halda imtahan elan olunmuş vaxtdan əvvələ təyin edilə bilməz.

**Maddə 17. İmtahanda iştirak etmək üçün lazım olan sənədlər**

17.1 İmtahana gələn tələbə nəzarətçilərə tələbə biletini, imtahana buraxılış vərəqəsi və şəxsiyyət vəsiqəsini təqdim etməlidir. Qeyd olunan sənədlər imtahanın sonunadək tələbənin oturduğu stolun üstündə olmalıdır.

17.2 Tələbə bileti olmayan tələbələr imtahana buraxılmır.

**Maddə 18. İmtahanların keçirilməsinə məsul şəxslər**

18.1 İmtahanı keçirən şəxslər (dekan, dekan müavini, imtahan komissiyasının üzvləri və imtahan rəhbərləri) imtahanın keçirilməsinə dair tam səlahiyyətlərə malikdirlər. Onların qərarlarına görə izahatlar verilmir, qərarlar müzakirə olunmur və apellyasiya qəbul edilmir.

18.2 Şifahi imtahanlarda imtahan götürən müəllimlərin sayı 2-dən az olmamalıdır.

**Maddə 19. Nəzarətçilər**

19.1 İmtahan otaqlarında imtahan prosesinin gedişinə nəzarət etmək məqsədilə nəzarətçilər təyin olunur. Nəzarətçilərin əsas vəzifəsi imtahanların imtahan qaydaları haqqında Qaydaların tələblərinə uyğun olaraq həyata keçirilməsinə nəzarət etməkdir. İmtahanlara nəzarət zamanı nəzarətçilər obyektivliyi, ədalət və qərəzsizliyi təmin etməlidirlər. Onların verdiyi qərarlar aydın, birmənalı və əsaslandırılmış olmalıdır.

19.2 Bir imtahan otağında ən azı 2 (iki) nəzarətçi (baş nəzarətçi və nəzarətçi) olmalıdır. Baş nəzarətçi nəzarətçilərə rəhbərlik edir, eyni zamanda özü də nəzarətçi funksiyalarını icra edir.

**Maddə 20. Nəzarətçilərin səlahiyyətləri**

20.1 Nəzarətçinin imtahan qaydalarını pozmuş tələbəyə qarşı Qaydalarda nəzərdə tutulmuş cəza tədbirlərini tətbiq etmək hüququ var. Nəzarətçilər imtahandakı pozuntu halları haqqında akt tərtib etməlidirlər. Aktda həm baş nəzarətçinin, həm də otaq nəzarətçilərinin imzaları əks olunmalıdır.

20.2 Nəzarətçinin Universitet və fakültə rəhbərliyindən, imtahan qərargahının üzvlərindən başqa, hər hansı bir şəxsi imtahan otağına buraxma səlahiyyəti yoxdur.

**Maddə 21. Baş nəzarətçi və nəzarətçilərin vəzifələri**

21.1 İmtahanın başlanmasına 1 saat qalmış baş nəzarətçi dekanlıqdan zərfə və ya qovluğa qoyulmuş imtahan tapşırıqlar toplusunu, tələbələrin siyahısını, fənn qiymət cədvəlini (siyahıda imtahana buraxılmayan tələbələrin adları əvvəlcədən dekanlıq tərəfindən qeyd olunur), imtahan qaydaları haqqında sənədləri, akt formalarını, boş cavab vərəqlərini qəbul edir.

21.2 Nəzarətçilər imtahanlara imtahan qaydaları haqqında Qaydalara uyğun nəzarət edirlər.

21.3 İmtahanın başlamasına 30 dəqiqə qalmış nəzarətçilər imtahan otağına gəlir, otağın vəziyyətini yoxlayır və tələbələri yerləşdirirlər. Tələbələrin yerləşdirilməsi zamanı onlaraşəxsi əşyaların qoyulması üçün yer göstərilir.

21.4 Tələbələr yerləşdirildikdən sonra nəzarətçilər onların qeydiyyatını aparırlar.

21.5 Qeydiyyat başa çatdıqdan sonra baş nəzarətçi imtahan qaydalarına və imtahanın xüsusiyyətlərinə dair qısa təlimat verir.

21.6 Təlimat başa çatdıqdan sonra imtahan tapşırıqları olan zərf (qovluq) açılır və tapşırıqlar paylanır.

21.7 Tapşırıqların paylanması başa çatdıqdan sonra imtahanın başlanması elan olunur, imtahanın başlanma vaxtı, və imtahanın başa çatma vaxtı lövhəyə yazılır.

21.8 Nəzarətçilər imtahanın başlanmasından 30 dəqiqə gec gələn tələbələri imtahana buraxmırlar və imtahan qeydiyyat vərəqəsində «gəlmədi» yazırlar. İmtahana yubananlar üçün əlavə vaxt verilmir.

21.9 Nəzarətçilər imtahan otağında sakitliyi təmin etməlidirlər.

21.10 İmtahan gedişatı zamanı baş nəzarətçi tələbələrə imtahanın sona yaxınlaşması haqqında vaxtaşırı xəbərdarlıq edir.

21.11 İmtahan başa çatdıqdan sonra nəzarətçilər imtahan işlərini toplayır və cavab vərəqlərində boş qalan yerləri "Z" işarəsi ilə qaralayır.

21.12 Baş nəzarətçi toplanmış işləri kodlaşdırmaq üçün dərhal Monitorinq və qiymətləndirmə bölməsinə təhvil verir.

**Maddə 22. Fənn müəllimi**

22.1 Tapşırıqlara dair tələbələrin sualları yaranarsa fənn müəlliminin imtahanda iştirak etməsinə icazə verilir. Bu zaman fənn müəllimi 15 dəqiqə ərzində yazılı materialların düzgün oxunmasına dair tələbələrin suallarına cavab verir. Bu müddət ərzində fənn müəllimi tələbənin

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

fikrinə görə imtahan tapşırığında olan səhv və qeyri-müəyyənlikləri şərh edir. (Fənn müəllimi sualların həll edilməsi yollarını izah edə bilməz). Ehtiyac olduğu halda, fənn müəllimi 2-ci nəzarətçi kimi imtahanda iştirak etməyə cəlb edilə bilər.

22.2 Əgər tələbə imtahan tapşırığında səhv və ya uyğunsuzluq olduğunu hesab edirsə, o, suala dair şəxsi fikrini qeyd etməli və düzgün hesab etdiyi variantda suala cavab verməlidir. İmtahan suallarında səhvlər aşkar olunarsa, bu, cavabların qiymətləndirilməsində nəzərə alınır.

**Maddə 23. İmtahanın gedişi**

23.1 Tələbələrin imtahan verilməsi ilə bilavasitə əlaqəsi olmayan şəxsi əşyaları, o cümlədən kitab, köçürmə xarakterli hər hansısa vasitələr, müxtəlif yazılı vasitələr, lüğət, elektron tərcüməçi, proqramlaşdırılan kalkulyator, elektron saat və digər elektron cihazlarını imtahan otaqlarına gətirməsi qadağandır. İmtahan zamanı mobil telefonlardan istifadə etmək və hərhansı bir məqsədlə onlara toxunmaq qəti qadağandır.

23.2 İmtahan başlamamış tələbəyə şəxsi əşyaların saxlanılması üçün yer göstərilir. Tələbə şəxsi əşyaların saxlanılmasına dair nəzarətçilərin göstərişlərini yerinə yetirməlidir, əks təqdirdə, o, imtahandan xaric olunur. Tələbə nəzarətçilərin tələbi ilə üzərində olan əşyaları təqdim etməlidir. Təqdim etmədiyi halda, tələbənin işi ləğv oluna bilər.

23.3 Nəzarətçilər tələbənin imtahan otağına gətirdiyi əşyaların saxlanması üçün məsuliyyət daşımırlar.

23.4 Tələbələr imtahana cədvəldə qeyd olunmuş vaxtdan 15 dəqiqə əvvəl gəlməlidirlər. İmtahana gecikən tələbələrə əlavə vaxt verilmir. İmtahanın başlanmasından 30 (otuz) dəqiqə keçəndən sonra gələn tələbələr imtahanda iştirak etmək hüququnu itirirlər.

23.5 Tələbələr imtahan başlanandan sonra 15 dəqiqə müddətində imtahan zalını tərk edə bilməzlər.

23.6 İmtahanda dərslik və əlavə materiallardan istifadə edilməsinə icazə, fənnin xüsusiyyəti və müəllimin təklifləri (açıq imtahanda) nəzərə alınmaqla verilə bilər. Bu barədə məlumat imtahan tapşırıqlarında öz əksini tapmalıdır.

23.7 İmtahanda iştirak edən tələbələrin yerləşməsini nəzarətçilər müəyyən edirlər. Lazım gəldikdə nəzarətçilər tələbənin oturduğu yeri dəyişdirə bilərlər.

23.8 İmtahanda iştirak edən tələbələr imtahanın əvvəlində qeydiyyat vərəqəsini imzalamalıdırlar, qeydiyyatdan keçməmiş tələbənin imtahan vermək hüququ yoxdur.

23.9 Nəzarətçilər imtahanın başlanğıcında imtahana dair təlimatları xatırladır və imtahan tapşırıqlarını paylayırlar. Tələbələr imtahan tapşırıqlarına, icazə verilməmiş toxunmamalı və onları oxumamalıdırlar.

23.10 Tələbə adını, soyadını və ya hansısa işarə verəcək məlumatları imtahan tapşırıqlarında və ya cavab vərəqlərində qeyd etdiyi halda imtahan nəticəsi ləğv olunur və tələbəyə "0" qiymət yazılır.

23.11 İmtahan otağına gətirilən hər hansı bir material imtahanı keçirən şəxslərin nəzarəti altında olmalıdır. Bu tələb kitabdan istifadə etməyə icazə olan (açıq) imtahanlara da aiddir. İcazəsi olmayan materialları və vəsaitləri gətirən tələbə imtahan qaydalarını pozmuş sayılır və qaydalara uyğun olaraq imtahan işinin ləğv olunması ilə imtahandan xaric olunur.

23.12 İmtahan cavablarının yazılması üçün lazım olan vərəqlər imtahan tapşırığına tikilir. Cavab vərəqlərinin imtahan tapşırığından ayrılmasına icazə verilmir. Ehtiyac olarsa, nəzarətçi əlavə vərəqlər verə bilər, bu vərəqlər nəzarətçi tərəfindən imtahan cavablarına tikilir. Tələbəyə özü ilə hər hansı vərəq gətirməsinə icazə verilmir.

23.13 İmtahan cavabları son variantda ancaq göy rəngli qələm ilə yazılmalıdır, karandaşdan istifadə etməyə icazə verilmir. Nəzarətçilər və ya dekanlıq tələbələri qələmlə təmin etmir.

23.14 İmtahanın xüsusiyyətindən asılı olaraq, istifadə olunmasına icazə verilən kitab, digər materiallar və kalkulyatordan ancaq bir tələbə istifadə edə bilər, şərikli istifadəyə icazə verilmir.

23.15 Tələbələr imtahan otağında sakitliyə riayət etməli, qapıları səliqəli açıb örtməli, imtahan zalını sakit şəkildə tərk etməlidirlər.

23.16 İmtahanın sonuna on beş (15) dəqiqə qalmış nəzarətçi imtahanın sona yaxınlaşdığı barədə ilk xəbərdarlıq edir. Bundan başqa, sona beş (5) və bir (1) dəqiqə qalanda da tələbələrə yenidən xəbərdarlıq edilir. İmtahanın sona çatması elan olunduqdan sonra yazıların davam etdirilməsi qadağandır. Yazının davamı və ya düzəlişlərin edilməsi imtahan qaydalarının pozuntusu hesab edilir. Bu halda nəzarətçi işi ləğv edə bilər.

23.17 İmtahan başlandıqdan sonra tələbələr imtahan otağını müvəqqəti tərk edə bilməzlər.

23.18 İmtahan keçirilən otaqlarda xüsusi hallarda videoçəkiliş aparılmasına icazə verilə bilər.

23.19 Nəzarətçi imtahanın başlama və bitmə vaxtını yazı taxtasına yazaraq elan etməlidir. Nəzarətçi vaxta nəzarət edən yeganə şəxsdir. Təyin edilən vaxtdan sonra tələbənin imtahan işini davam etdirməsi qadağandır.

23.20 İmtahan işini təhvil verən tələbə imtahan otağını tərk etməlidir.

23.21 İmtahan işlərinin yoxlanılmasında obyektivliyi təmin etmək məqsədi ilə imtahan başa çatdıqdan sonra işlər Monitorinq və qiymətləndirmə bölməsi tərəfindən kodlaşdırılır.

23.22 Nəzarətçi uyğun maddələrdə qeyd olunanlardan əlavə, aşağıdakı hallarda da tələbəni imtahandan xaric etmək və imtahan işini ləğv etmək hüququna malikdir:

23.22.1 Başqa tələbənin əvəzinə və ya başqasının onun əvəzinə imtahan vermək cəhdləri (bu halda əlavə olaraq daha ağır cəza tədbirləri, o cümlədən tələbənin Universitetdən xaric olunma cəzası tətbiq oluna bilər);

23.22.2 İmtahan biletlərinin, test suallarının bir qisminin və ya bütövlükdə hər hansı bir qeyri qanuni yolla əldə edilməsi halları (bu halda əlavə olaraq daha ağır cəza tədbirləri, o cümlədən tələbənin Universitetdən xaric olunma cəzası tətbiq oluna bilər);

23.22.3 Hər hansı bir əlavə vəsaitdən icazəsiz istifadə etmək və ya buna cəhd etmək;

23.22.4 İmtahanın keçirilməsinə maneçilik törətmək cəhdləri;

23.22.5 Başqasına məsləhət vermək və ya məsləhət almaq cəhdləri, imtahan

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

tapşırığının məzmununun imtahan zamanı müzakirəsi, imtahan otağını tərk edənədək tələbələr arasında hər hansı bir formada ünsiyyətin olması;

23.22.6 İmtahan tapşırığının başqa tələbəyə göstərilməsi, verilməsi, imtahan otağından çıxarılması və ya bunlara cəhd edilməsi.

23.23 Nəzarətçilər qaydalarda öz əksini tapmamış digər oxşar hallarda da tələbələrə qarşı müvafiq cəza tədbirləri tətbiq edə bilərlər.

## IV Fəsil. Apellyasiya qaydaları

### Maddə 24. İmtahan nəticələrinə etiraz

24.1 Apellyasiya yalnız imtahanın nəticəsinə görə verilə bilər. İmtahanın nəticəsindən narazı olan tələbə nəticələr elan edildiyi gündən etibarən 5 (beş) iş günü ərzində apelyasiya ərizəsi ilə müraciət edə bilər. Bu halda imtahan komissiyasının rəhbərliyi ilə xüsusi komissiya yaradılır, imtahanın nəticəsi ləğv edilir, iş komissiya tərəfindən yenidən yoxlanılır və qiymətləndirilir.

24.2 Apellyasiya ərizəsi verməmiş tələbənin öz işinə baxmasına icazə verilmir.

24.3 Apellyasiya komissiyası tələbənin işini araşdırdıqdan sonra öz təklifini aşağıdakı sənədlərlə birlikdə tədris işləri üzrə prorektora təqdim edir:

24.3.1. komissiya iclasının protokolu;

24.3.2. tələbənin ərizəsi;

24.3.3. fənn müəlliminin yazılı izahatı;

24.3.4. yoxlanılan imtahan işi;

24.3.5. fənnin qiymət cədvəli.

24.4 Komissiyanın təklifi prorektor tərəfindən təsdiq edildikdən sonra tələbənin əvvəlki qiyməti ləğv edilir, onun üçün yeni qiymət cədvəli tərtib olunur, düzəlişlər ora daxil edilir və prorektor tərəfindən imzalanır. Bu qiymət cədvəli əsas qiymət cədvəlinə əlavə edilir.

## V fəsil. Təkrar imtahanlar

### Maddə 25. Təkrar imtahanlar

25.1 Tələbələrin semestr imtahanlarını təyin olunmuş vaxtda vermələri ciddi şəkildə təmin edilməlidir.

25.2 Üzrlü səbəbdən imtahanda iştirak etməyən və bu barədə rəsmi sənəd təqdim edən tələbələrə bir dəfə həmin fən(lər)-dən ödənişsiz təkrar imtahan vermək imkanı yaradılır.

25.3 Tələbəyə hər semestr ən çox 2 (iki) fəndən (üzrlü səbəb istisna olmaqla) təkrar imtahan verməyə icazə verilir. Bu fənləri, imtahan vermək istəyən tələbə özü müəyyənləşdirir.

25.4 Müəyyən olunmuş əlavə müddətdə də hər hansı bir səbəbdən imtahanlarda iştirak etməyən tələbələr həmin fənlər üçün yenidən qeydiyyatdan keçərək təhsil haqqı ödəməli vəfənləri yenidən oxumalıdırlar.

25.5 Fakültə dekanları müvafiq fənlər üzrə təkrar imtahan vermək arzusunda olan tələbələrin siyahılarını, uyğun kafedralar isə təkrar imtahan veriləcək fənlər üçün xüsusi imtahan tapşırıqları hazırlayır. İmtahan tapşırıqları kafedra müdiri tərəfindən təsdiq olunmalıdır.

25.6 Təkrar imtahanlar payız və yaz imtahan sessiyası başa çatdıqdan sonra növbəti semestr başlayanadək həyata keçirilir.

25.7 Təkrar imtahanların cədvəli dekanlıq tərəfindən müəyyən edilir. Hər-hansı bir fəndən təkrar imtahan vermək istəyən tələbə imtahan günündən ən azı 3 (üç) gün əvvəl dekanlığamüraciət etməlidir.

25.8 Təkrar imtahan keçirildikdən sonra 3 (üç) gün müddətində nəticələr açıqlanır.

25.9 Nəticələr təkrar imtahanın qiymət cədvəlində öz əksini tapır və Monitorinq və qiymətləndirmə bölməsi, fənn müəllimi və dekan tərəfindən imzalandıqdan sonra fənn üzrə qiymət cədvəli ilə birlikdə saxlanılır.

## VI Fəsil. Yekun müddəalar

**Maddə 26. Qaydaların həyata keçirilməsi**

26.1 Qaydaların həyata keçirilməsinə rektor nəzarət edir.

26.2 Qaydalara əlavə və dəyişikliklər Universitetin Elmi Şurasında müzakirəyə çıxarılır və Elmi Şuranın qərarı ilə təsdiq olunur.

**Maddə 27. Qaydaların qüvvəyə minməsi**

Qaydalar Universitet Elmi Şurasında təsdiq edildiyi gündən qüvvəyə minir.

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ * NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ *